# İqtisadiyyatın çoxşaxəli yüksəlişi daim diqqət mərkəzindədir

**Müstəqil Azərbaycan dövləti bu gün ümummilli liderimiz Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Son 18 il ərzində Prezident cənab İlham Əliyev Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirərək Azərbaycanın dayanıqlı inkişafını təmin edib. 1993-2003-cü illərdə Ulu Öndər gənc müstəqil dövlətin siyasi, iqtisadi əsaslarını möhkəmləndirdi, ən aparıcı transmilli şirkətləri ölkə iqtisadiyyatına cəlb etməklə yeni iqtisadi sistemin qurulması üçün titanik fəaliyyət göstərdi və respublikanın yaxın, uzaq gələcək üçün də dinamik inkişafının möhkəm əsaslarını yaratdı. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə dinamik inkişaf və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal iştirakçı ölkə kimi tanınır. Sözsüz ki, bütün bu uğurların təməlində ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.**

Son dövrlər Azərbaycan iqtisadiyyatının bir sıra sahələrinə dövlətin qayğı və diqqətinin artırılması, beynəlxalq təcrübəyə əsaslanan yeni inkişaf metodlarının tətbiq edilməsi öz nəticəsini göstərməkdədir. Bu istiqamətdə həyata keçirilən islahatların əsas məqsədi iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək və ixrac imkanlarını genişləndirməkdir. Ölkəmizdə gedən iqtisadi inkişaf beynəlxalq aləmdə də öz təsdiqini tapıb. Məhz Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs Azərbaycan dövlətinin bütün sahələrdə yüksək göstəricilərə nail olmasında müstəsna rol oynayıb.

Azərbaycanda iqtisadi fəallığın hökumət tərəfindən dəstəklənməsi iqtisadiyyatın inkişafına öz müsbət təsirini göstərib. Həmçinin, yüksək inkişaf meyilləri iqtisadiyyatın qeyri-neft sektoruna böyük həcmdə investisiyaların yatırılmasına şərait yaradıb. Bununla bərabər dünya iqtisadiyyatında baş verən mənfi tendensiyalar demək olar ki, əksər ölkələrdə sərmaye qoyuluşunu azaltsa da, Azərbaycandakı mövcud investisiya imkanları və əlverişli biznes mühiti yerli sahibkarlarla yanaşı, xarici investorların da ölkəmizə marağını artırıb.

Dövlət başçısının tapşırıqlarına əsasən, investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərin nəticəsidir ki, Azərbaycana sərmayə qoyan şirkətlərin sayı ilə yanaşı,onların coğrafiyası da getdikcə genişlənir. Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən illər ərzində iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsi daim diqqət mərkəzində saxlanılıb. Odur ki, yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafı və şaxələndirilməsi istiqamətində mühüm uğurlar əldə edilib.

Prezident İlham Əliyevin modern sənayeləşmə siyasətinə uyğun olaraq həyata keçirilən layihələrin reallaşması nəticəsində Azərbaycan hazırda regionun sənaye mərkəzinə çevrilir. Müasir istehsal infrastrukturuna malik sənaye parklarının fəaliyyəti bu sahənin tərəqqisinin, iqtisadiyyatın tarazlı yüksəlişinin reallaşdırılmasını nəzərdə tutan dövlət siyasətinin gerçəkləşdirilməsinə yönəldilib. Bu cür sənaye komplekslərinin yaradılması respublikanın qeyri-neft sektorunun davamlı inkişafı, iqtisadiyyatın ixrac qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, bölgələrdə məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlbi kimi önəmli vəzifələrin yerinə yetirilməsi baxımından mühüm önəm daşıyır.

Ötən illər ərzində Azərbaycanın dövlət siyasətində, bir qayda olaraq, iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi gözlənilib. Keçən dövrün təcrübəsinə nəzər salsaq, görərik ki, ölkəmizdə iqtisadi inkişafın ardıcıllığının təmin olunması üçün həm hüquqi baza davamlı şəkildə möhkəmləndirilib, həm də praktiki müstəvidə zəruri tədbirlər görülüb, iqtisadi subyektlərin öz fəaliyyətlərini genişləndirmələrinə dəstək artırılıb.

***Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası uğurların təməlidir***

Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqətin yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsas xəttini təşkil edir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün ilk növbədə insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin edib, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub.

Azərbaycan iqtisadiyyatı ötən ilin 11 ayında 5,3 faiz, qeyri-neft iqtisadiyyatı isə 6,4 faiz,sənaye istehsalı 5,5 faiz, qeyri-neft sektorunda isə sənaye 20,7 faiz, valyuta ehtiyatlarımız isə 2,2 milyard dollar artmışdır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci il ərzində ölkədə 92857,7 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur.

Məlum olduğu kimi, Prezident İlham Əliyev 2021-ci il fevralın 2-də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda bildirilir ki, 2020-ci ildə ölkəmizin işğal altındakı torpaqlarının azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi Zəfərdən sonra Azərbaycan keyfiyyətcə yeni strateji mərhələyə daxil olur. Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir. Odur ki, 2021-2030-cu illəri əhatə edən Milli Prioritetlər yeni strateji dövrdə qarşıda duran hədəflərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədi daşıyır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" XXI əsrdə ölkəmizin inkişafı ilə bağlı qəbul olunan ikinci uzunmüddətli strategiyadır. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir standartlara əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

Ötən 30 ildə ölkədə tətbiq edilən iqtisadi inkişaf modelinin başlıca siyasi və sosial-iqtisadi nəticəsi Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, iqtisadi inkişafın arxitekturasının gücləndirilməsi və ölkənin beynəlxalq nüfuzunun artırılması olmuşdur. Ölkənin iqtisadi gücü ərazi bütövlüyünü bərpa etməyə və əhalinin sosial rifahını yaxşılaşdırmağa imkan vermişdir. Bütün sahələrdə həyata keçirilən uğurlu dərin islahatların nəticəsi olaraq ölkəmiz bir çox dövlətlərin uzun illər ərzində əldə edə bilmədiyi nailiyyətlərə imza atıb. Bu illərdə sosial-iqtisadi inkişaf üçün başlıca şərt olan fundamental ictimai-siyasi sabitlik davamlı şəkildə möhkəmlənmişdir.

Həmçinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyun 2021-ci il tarixli Sərəncamı ilə ərazi bütövlüyü şəraitində ölkəmizin coğrafi ərazisində əvvəl mövcud olmuş 10 iqtisadi rayon əvəzinə işğaldan azad edilmiş rayonların əraziləri də nəzərə alınmaqla 14 iqtisadi rayonun yaradılması Vətən müharibəsindən sonra ölkədə yaranmış yeni reallığın obyektiv ifadəsidir.

Bu gün iqtisadiyyatın inkişaf etdirilməsi, infrastruktur layihələrinin həyata keçirilməsi bir daha sübut edir ki, Prezident İlham Əliyev ümumbəşəri dəyərlərə əsaslanan özünəməxsus inkişaf kursu və dövlətçiliyin daha da möhkəmləndirilməsinə yönəldilmiş siyasəti ilə Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevirmək məqsədinə doğru uğurla aparır.

**M.MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2022.- 26 yanvar.- S.3.